Ədalət.- 2022.- 26 fevral. S. 8.

# Sağlığında qiymət verin şairlərə...

... 1966-cı ildə hələ çox gənc yaşında yazdığı "Kökələr" şeiri ilə Ənvər Əhməd poeziyamıza öz möhürünü vurdu. Balalarına kökə bişirən ananın obrazını şair hələ o vaxt yaratmağa müvəffəq olmuşdu:

*Yenə mənim könlümə*
*Kökə düşüb, ay ana,*
*Kökə bişir balana.*
*Əllərinin ətrini*
*Kökələrdən duyum mən.*
*Kökələri öpərək*
*Gözün üstə qoyum mən!*

Bizim nəsildə hər kəs qələm sahibi olduğundan aramızda açıq, səmimi münasibət vardı. Hamı kimi mən də əmim olsa da, Ənvər Əhmədə şair deyə müraciət edərdim. O, da mənə sevimli, istiqanlı, ürəyə yatımlı dədə adıyla müraciət edərdi... O, təkcə doğulduğu kəndimiz Salmanbəylinin, Kəbirlinin, Ağcabədinin yox, bütün Azərbaycanın şairi idi. Qohumları çox, nəsli böyük idi.



Amma dostları, sirdaşları, oxucuları daha çox idi. Çünki üzündən təbəssüm süzülərdi, içi işıqlıydı. Mehriban, həzin, insanpərvər və eyni zamanda Vətəni, torpağı ürəkdən sevən çılğın bir şair idi Ənvər Əhməd. Vətəndə qürbət həsrəti, Qarabağ nisgili ilə yaşaya bilmirdi. Misralarındakı torpaq, doğulduğu, oylağı olan yurd həsrəti adamı yandırırdı. Çox zaman bu böyük ürəyə sahib olan nikbin, əyilməz şairin Vətən həsrəti, dərdi içinə sığmazdı. Doğma, müdrik baxışlarından işğal altında olan torpaqların adı, coğrafiyası süzülürdü.

... 2021-ci il 30 avqustunda Şuşaya, Vaqif poeziya günlərinin açılışına dəvət almışdı. Ancaq təbiətin şirini, şəkər onu qaranlıq komaya saldı. O, Şuşaya gedə bilmədi. İllərdən bəri ürəyinin başında gəzdirdiyi Şuşalı günlərə qayıda bilmədi. Gözəl Qalanı bir də görmədi. Ona olan sonsuz sevgisi ürəyində qaldı. Təəssüf ki, o, Şuşanı salamlayıb, bağrına basa bilmədi, qoynunda doyunca ağlamadı. Ancaq indi ağladı. Ona baxıb mən də kövrəldim:

*Ayaq basdığım*
*Vətən torpağı*
*Ürəyimin*
*başından keçir...*

Nəslimizin poeziya palıdı olan nəhəng şairi bir daha xatırlayıram.

Yazan qələmim də çılğınlaşır. Onun haqqında keçmiş zamanda yazmaq istəmirəm. Qələm tərslik etmir, o da sənin bizimlə, səni sevənlərlə, yaddaşımızın dərinliyində yaşadığını bilir.

Bir az kiçicik təsəlli üçün görünən yerini axtarıram. Sənli günlərə, sənə qayıtmaq istəyidir bu təsəlli axtarışı...

... Düz 50 il bundan öncə sənin işlədiyin redaksiyada çalışıram. İş yerim elə sənin o vaxtkı kabinetindir. Burada şəklinə dəfələrlə baxır, kitablarını yenidən oxuyuram. Nurani, xeyirxah, şair simanın çələngini qəlbimdə bir daha toxuyuram.

Şair, sən unudulmazsan. Əziz surətin, yaraşıqlı siman həmişə gözümüzün önündə, yaddaş və ürəyimizin ən layiqli guşəsində özünə əbədi məskən salıb. Sən həmişə bizimləsən, Şair!

Xalq şairi adı almasa da, öz əsərləri ilə poeziyamızda 60 ilə yaxın külüng çalan, xalqın şairi Ənvər Əhmədin əziz xatirəsi onu sevənlərin qəlbində əbədi yaşayacaqdır...

**Adil MİSİRLİ**